# Azərbaycan həmişə sənin yanındadır, Türkiyə!

**Fevralın 6-sı qardaş Türkiyənin tarixində dəhşətli təbii fəlakətin baş verdiyi gün kimi qalacaq. Ölkənin Boğaziçi Universiteti Qəndilli rəsədxanasının verdiyi məlumata əsasən, həmin gün saat 04:17-də (Bakı vaxtı ilə 05:17) mərkəzi Kahramanmaraş vilayəti olan bölgədə 7,7 bal gücündə zəlzələ baş verib.**



Türkiyənin Fövqəladə Halların İdarə Edilməsi Agentliyinin (AFAD) məlumatına görə, təbii fəlakət Kahramanmaraş da daxil olmaqla Türkiyənin 10 vilayətində – Malatyada, Qaziantepdə, Osmaniyədə, Kilisdə, Adanada, Antalyada, Şanlıurfada, Hatayda və Adıyamanda dağıntılara səbəb olub, şəhərlərdə bəzi yaşayış binaları uçub, kəndlərdə isə bır sıra evlər tamamilə yararsız vəziyyətə düşüb. Bölgədə ard-arda afterşokların qeydə alınması dağılan binaların sayının daha çox olacağını deməyə əsas verir. İlk dəqiqələrdə təkcə Qaziantep şəhərində 531 binanın uçması, çox sayda binanın yararsız vəziyyətə düşməsi də bu fikri təsdiqləyir. Zəlzələ Anadolunun, demək olar ki, bütün vilayətlərində, o cümlədən, qonşu ölkələrdə – Azərbaycanda, İraqda, İranda, Misirdə, İordaniyada, ümumilikdə, 16 ölkədə hiss olunub.





Prezident Rəcəb Tayyib Ərdoğan AFAD-da keçirdiyi brifinqdə bildirib ki, zəlzələ nəticəsində 912 nəfər həlak olub, 5385 nəfər xəsarət alıb. Bununla yanaşı, 2470 nəfər dağıntılar altından çıxarılıb, 2818 bina dağılıb. (Son məlumatlara görə, dağılan binaların sayı 5606-ya çatıb – red) Ölkə başçısı ölü və yaralı sayının artacağını istisna etməyib.

Qəndilli rəsədxanasının və Zəlzələ Araşdırma İnstitutunun müdiri professor Haluk Özener mətbuata açıqlamasında bildirib ki, Şərqi Anadolunun 180 kilometr uzunluğundakı fay xəttində qırılma meydana gəlib və çox qısa zamanda 48 afterşok qeyd alınıb. Bunların biri 6.6 bal, 7-si isə 5 baldan yuxarı olub. Fevralın 6-sı günorta saatlarında 7.6 bal gücündə zəlzələ isə daha çox dağıntılar törədib. Onun sözlərinə görə, 1999-cu ildə Türkiyənin Mərmərə bölgəsində baş verən zəlzələdən sonra bu, ən böyük təbii fəlakət hesab olunur.



Tarixin çox çətin sınaqlarına sinə gərən, eyni millətə, eyni dilə, eyni dinə sahib olan iki xalqın arasındakı ən təbii hisslərdən bəhrələnən, ondan güc alan Azərbaycan – Türkiyə qardaşlığı bu dəfə də özünü göstərdi. Belə ki, Türkiyədə baş vermiş zəlzələdən sonra ölkəyə ilk təmənnasız dəstəyini göstərən ölkə yenə onun qardaş və müttəfiqi Azərbaycan oldu. Prezident İlham Əliyevin tapşırığı ilə zəlzələnin fəsadlarının aradan qaldırılması və axtarış-xilasetmə əməliyyatlarına dəstək məqsədilə Fövqəladə Hallar Nazirliyinin ilkin olaraq 370 nəfərdən ibarət çevik xilasetmə qüvvələri qardaş ölkəyə göndərilib. Ardınca ilkin yardım məqsədilə çadırlar, yataq dəstləri, tibbi ləvazimatlar və digər zəruri vasitələri hadisə yerinə çatdıracaq ikinci təyyarə də hazırlanıb və qısa zamanda yola salınıb. (Bu gün artıq daha iki təyyarə Türkiyəyə uçacaq – red).

İki qardaş ölkənin əlaqələrində ulu öndərimiz Heydər Əliyevin "Bir millət, iki dövlət" prinsipi daim ön plandadır. Bu, dar məqamda özünü daha qabarıq şəkildə hiss etdirir. Təsadüfi deyil ki, dünya liderləri arasında Türkiyəyə ilk başsağlığı verən ölkə yenə də Azərbaycandır. Prezident İlham Əliyevin həmkarı Rəcəb Tayyib Ərdoğana ünvanladığı başsağlığı məktubunda qardaş ölkədə baş verən təbii fəlakəti böyük kədərlə qarşıladığını vurğulayıb. Məktubda deyilir: "Kahramanmaraşda baş vermiş və qardaş Türkiyənin bir çox yerlərində hiss edilmiş güclü zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər bizi olduqca kədərləndirdi. Bu ağır məqamda hər cür yardım göstərməyə hazır olduğumuzu bildirir, faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyir, zəlzələnin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram. Allah rəhmət eləsin!"



Dünən Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib. Dövlətimizin başçısı Türkiyədə baş vermiş zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılarla bağlı xəbərin Azərbaycanı çox sarsıtdığını və kədərləndirdiyini deyib.

Prezident İlham Əliyev zəlzələ zamanı həlak olanlarla bağlı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana, onların ailələrinə və qardaş Türkiyə xalqına şəxsən öz adından və xalqımız adından bir daha başsağlığı çatdırıb, yaralananların tezliklə şəfa tapmasını dilədiyini bildirib.

Azərbaycan Prezidenti qeyd edib ki, bu, böyük fəlakətdir və ölkəmiz Türkiyənin dərdinə şərik çıxır. Dövlət başçısı vurğulayıb ki, Azərbaycan və Türkiyə hər zaman bir-birinin yanındadır.

Dövlət başçımız əlavə edib ki, 420 nəfərdən ibarət xilasedici heyət artıq qardaş ölkəyə göndərilib və hadisə yerinə çatan kimi Türkiyədən olan həmkarları ilə birlikdə dərhal fəaliyyətə başlayacaq... Ehtiyac duyulan ləvazimatlarla bağlı yardım da yaxın vaxtlarda qardaş ölkəyə yola salınacaq.

Türkiyə Prezidenti bu qardaş dəstəyinə görə dövlət başçısına və Azərbaycan xalqına minnətdarlığını ifadə edib.



Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva da "İnstagram" hesabında paylaşım edərək Türkiyədə baş vermiş zəlzələ ilə əlaqədar qardaş ölkəyə başsağlığı verib. Paylaşımda deyilir: "Türkiyənin cənub-şərqində baş vermiş güclü zəlzələnin nəticələri barədə xəbərləri dərin kədər hissi ilə qarşıladım. Allah faciə zamanı həlak olanlara rəhmət eləsin! Onların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm. Yaralananların və xəsarət alanların tezliklə şəfa tapmasını arzulayıram. Türkiyə xalqının kədəri bizim kədərimizdir. Uca Tanrıdan bütün Türkiyə xalqına güc və səbir diləyirəm!"

Bəli, bu gün Türkiyə – Azərbaycan dostluğu, qardaşlığı bütün dünyaya nümunədir. Həlledici məqamlarda bir-birinə qanı, canı ilə dəstək verməkdən çəkinməyən iki qardaş ölkənin tarixində baş verən hadisələr də qardaşlığın, dostluğun, birliyin, sədaqətin ən gözəl nümunələridir. 1918-ci ildə Türkiyənin dəstəyi ilə Bakının işğaldan azad edilməsi, 102 ildən sonra da Azərbaycanın haqq savaşında onu qeyd-şərtsiz dəstək verməsi də qardaşlığın təntənəsidir. 1915-ci ildə azərbaycanlıların axın-axın Çanaqqala döyüşlərinə atılaraq Türkiyəni qorumağa çalışmaları, 1919-1923-cü illərdə Milli Qurtuluş Savaşına maddi-mənəvi və hərbi dəstəklərini göstərmələri, 2016-cı ildə iyulun 15-də qardaş ölkədə hərbi çevrilişə cəhd zamanı birmənalı şəkildə rəsmi Ankaranın dəstəkləməsi, ötən illərdə Türkiyədə baş verən təbii fəlakətlər zamanı xilasedicilərin və hər cür yardımın dərhal göndərilməsi də sarsılmaz qardaşlarımızın nümunələridir. Bu baxımdan, Kahramanmaraş zəlzələsindən sonra ilk köməyin Azərbaycandan gəlməsi də təsadüfi deyil. Bu, qardaşlıq, dostluq, müttəfiqlik, sıx birlik, həmrəylikdir.

***Rauf KƏNGƏRLİ***

